BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2005

# «ERMƏNİ MƏSƏLƏSİ»NİN YARADILMASINDA KİLSƏNİN ROLU
## (İkinci məqalə)

**İ.M.MUSAYEV**

XVIII əsrdən etibarən ermənilərin «dövlət» yaratmalarına dair yeni-yeni layihələri də ortaya çıxdı. Belə layihələrdən birini XVIII əsrin II yarısının erməni ruhani siyasətçisi – katolikos H.Arğutyan hazırlamışdı. Erməni müəlliflərinin, E.Uras tərəfindən incələnən,[1] əsərlərinə: Daşnaksütyun komitəçilərindən H.Aknuninin «Qafqaz yaraları» (Tiflis, 1905), rahib Ağatyanın «Erməni tarixi divanı» (IV kitab, Tiflis, 1899, s. 731-737), Leonun «Erməni məsələsinin sənədləri» (Tiflis, 1915) və s. əsasən bunları qeyd etmək olar.

Bu əsərlərdə də Rusiya «Şərq xristianlarının müdafiəçisi» (H.Aknuni) kimi qiymətləndirildi. Habelə H.Arğutyanın layihəsinin mahiyyəti açıqlanırdı. Həmin layihə[2] «Ermənistan»ın Osmanlıdan ayrılmasını, Rusiya ilə onun müsəlman qonşuları (Türkiyə və İran) arasında bir xristian divarı olacaq «Ararat krallığı»nın yaradılmasını nəzərdə tuturdu (Sözgəlişi, «Ararat krallığı» ermənilərin digər və həddən ziyadə çoxsaylı əsərlərində özünə yer almış, dini ayinlərində anılmış və hətta onunla bağlı ABŞ-da abidə də ucaldılmışdır).[3]

Layihədə təklif olunan ideyanı («Ararat krallığı» yaradılmasına dair fikri) II Yekaterinanın dəstəkləməsi Peterburq müzakirələri ilə nəticələndi. Müzakirələrdə ermənilərdən – H.Arğutyanla, Moskvada erməni məktəbi açdıran varlı O.Lazaryan və Rusiyadan isə knyaz Q.Potyomkinin adından məşhur sərkərdə A.Suvorov iştirak edirdilər (Bir çox əsərlərdə — E.Uras, A.Arslan və b. tədqiqatlarında — bu məsləhətləşmələr və II Yekaterinanın vəfatı tarixləri ilə bağlı müəyyən anlaşılmazlıqlar (uyuşmazlıqlar – bəlkə də mexaniki xətalar) da vardır).[4]

Məsləhətləşmələrdə qaldırılan məsələlər və layihədə ifadə olunan məqamlar (fikirlər) zəmanəmizdə – çağdaş günümüzdə üzləşdiyimiz problemlər baxımından da maraqlı və önəmli olduğundan bir qədər geniş şəkildə aşağıdakılara[5] diqqət yetirilməsi lazım gəlir:

**1.** «Ermənistan»ın bir neçə yüz illərdən bəri öz krallarından və müstəqil idarəçilikdən məhrum olması. Onun bir çox yerlərinin türklər və iranlılar tərəfindən idarə edilmələri və kiçik hissəsinin isə Qarabağda (buradakı bəzi məlikliklər nəzərdə tutulur – İ.M.) müstəqil olaraq qalması (?! – İ.M.).

**2.** Millətin içindən çıxan bir liderin çox asanlıqla «Ermənistan»ı dirildə, qısa zamanda baş verəcək erməni axınları ilə oranın doldurula biləcəyi, torpaq və iqlimin əlverişliliyi, burada barıt və dəmir əldə edilməsi (buna xüsusi fikir verilməsi lazım gəlir – İ.M.).

**3.** Qarabağ məlikləri kimsəyə bağlanmasalar da (onlar son orta çağ Azərbaycan feodal dövlətinin – Qarabağ xanlığının ərazisində idilər və Rusiyaya meylləndiklərindən vaxtaşırı problemlər yaradırdılar – İ.M.) birləşə bilməmələri üzündən zəifləmişlər. Erməni rəislərin cəhaləti (təlimatsızlığı) bu müstəqil idarəni (?! – İ.M.) həm özləri, həm də bütün millət üçün faydasız və lüzumsuz bir hala gətirmişdir.

**4.** Digər ermənilər İran xanlarının idarəçiliyində olduqlarından zülmə, haqsızlıqlara (?! – İ.M.) məruz qalmışlar və onların bir qismi Türkiyəyə qaçmışdır.

**5.** Xalqın seçimi və ya əzəmətli imperatriçanın lütfkarlığı ilə millətdən bir lider çıxarsa, onun Dərbənddə yerləşə bilməsi və Şamaxı ilə Gəncədə hökmran olması təmin edilməlidir. O zaman Qarabağ və Sağnatın (?! – İ.M.) da şübhəsiz yetərincə əsgər verərək bu işə qatılmaları ilə İrəvan və digər şəhərlər də zəbt olunacaqdır.

**6.** Bu məqsədlə də iki il ərzində — erməni rəisinin İrəvanı tutmasınadək onun üç mindən artıq hərbi qüvvəyə (piyada və topçu əsgərə) ehtiyacı vardır. İrəvan alındıqdan sonra erməni şəhərlərinin (?! – İ.M.) gəlirləri və s. hesabına çoxlu əsgər toplamaq mümkün olacaqdır. Milli əsgərlər təlim və təhsil gördükdən sonra məmləkətin hüdudlarını qüvvətləndirər və onu türk-iranlıların hücumlarından qoruyarlar.

**7.** Belə bir təşəbbüsün (layihənin) II Yekaterinanın bir sözü ilə ön plana çıxarılacağı azacıq şübhədən belə uzaqdır. Onun qısa zamanda imperatriçanın sayəsində gerçəkləşdirilməsi yalnız Rusiyanın şan və şərəfini böyütməklə qalmayaraq çarlığın gələcəkdə Türkiyə və İranı əzməsinə də yardım göstərəcəkdir (Və həqiqətən də bu plan-niyyət baş tutdu. Rusiya göstərilən dövlətlərin qüdrətini sarsıdıb vaxtı ilə onlara qatılan əraziləri (Quzey Azərbaycan və s.) işğal etdi). Çünki öz hakimiyyətinin idarəsi altında toplanan erməni milləti hüdudlarını bir az da genişləndirməklə məhsuldar yerlərə sahib çıxaraq 12-20 min əsgər saxlaya biləcəkdir. Və Türkiyə, yaxud da İranla müharibə baş verərsə, bu sayı 60 mindən artığa çatdırmaq gücünə malik olacaqdır. Bu milli təşəkkül lazımi hallarda Rusiyaya hər dəfə qüvvəsi yetdiyi qədər əsgər verəcəkdir (Ermənilər sonralar bunu dəfələrlə əməli surətdə təsdiqlədilər. Belə ki, silahlı erməni dəstələri Rusiyanın Osmanlı ilə müharibələrində birincinin tərəfindən vuruşdular – İ.M.). Türkiyə hökuməti bu dəyişikliyin törədəcəyi böyük zərərləri duyacaqdır (Ermənilərin bu məqsədləri – istəkləri də həyata keçdi. Türkiyə hələ bu gün də erməni xəyanətinin acı bəhrələrini dadmaqdadır –İ.M.).

**8.** Ermənilər, qurtuluşları və yenidən inkişaflarından ötrü, daima Rusiyaya minnətdar olacaq və borclu qalacaqlar.

Layihə və müzakirələrlə əlaqədar - məqsədyönlü şəkildə burada geniş işıqlandırdığımız - bu kimi məsələlər «erməni problemi»nin ortaya çıxarılmasının köklərinə yaxından bələd olmağa, onu ərsəyə gətirən qüvvələri yax-

şı tanımağa imkan verir. Və, bunlardan biri olan, Rusiya katolikos H.Arğutyanın layihəsinə təbii ki, biganə qalmadı. Ondan möhkəm yapışaraq öz tarixi planlarını gerçəkləşdirmək yolundakı səylərini davam etdirdi.

Qafqazda, Rusiyanın himayəsi altında olan, bir «Ermənistan» yaradılması və onun taxt-tacının da II Yekaterinanın yaxınlarından olan Q.Potyomkinə verilməsi razılaşdırıldı. Habelə «müstəqil Ermənistan» ilə Rusiya arasındakı münasibətlərə dair iki müqavilə ortaya qoyuldu. Onlardan birincisində ermənilərin, ikincisində isə rusların verdikləri sözlər (götürdükləri öhdəliklər) və iki ölkənin hüquqları, vəzifələri ifadə olunmuşdu. Müqavilələrin, E.Urasın göstərilən kitabında (s.751-755) verilən, mətnlərinin başlıca məqamlarını xülasə şəklində burada da əks etdirməyi faydalı sayırıq.

On səkkiz (18) maddədən ibarət olan və ermənilərin mənafelərini, habelə öhdəliklərini əks etdirən birinci müqavilənin əsas maddələri (cəhətləri) bunlardır:

- rus-erməni millətlərinin mövcud dostluğunun möhkəmləndirilməsi;
- iki krallığın böyük bir müqavilə ilə sona qədər bir-birinə bağlanılması;
- Ermənistanda, milləti qorumaq və İran ilə Osmanlıdan müdafiə üçün, müəyyən sayda rus əsgərinin saxlanması;
- daha əvvəllərdə yunanlar və iranlılarla olduğu kimi indi də Rusiyaya bağlanma və hökdmara vergi, qızıl-gümüş verilməsi, habelə müharibə vaxtı bir-birinə yardım göstərilməsi;
- mərhəmətli çariça talesiz vətənimizi və yıxılmış tacımızı yaşatmağa yardım etdiyindən kralımızın təyinatının (istər bizim aramızdan, istərsə də şəxsən güvəndiklərinin sırasından) yalnız özünə aid olması;
- dövlətçilik və onun atributları ilə əlaqədar: kral olacaq şəxsin, erməni qanunlarına görə, kral şəhəri sayılan Vağarşabadda və müqəddəs Eçmiədzində keçmiş qaydalarla taxta çıxarılması; krallıq mərkəzinin Vağarşabad və ya Ani, yaxud da Ararat bölgəsində uyğun görülən bir şəhər olması; erməni bayrağında Nuhun gəmisinin və Allahın tufandan sonra Nuha, sülh və salamatlıq işarəsi olaraq, göstərdiyi qövsi-qüzehin rənglərinin (qırmızı, yaşıl, mavi), habelə xristianlığı ermənilərə qəbul etdirən və onların ilk dini başçısı sayılan Qriqor Lusavoriçin rəsmlərinin verilməsi; hökmdarlıq gerbində isə lap qədimdə olduğu kimi təkbaşlı qartalın, xristianlığı təmsil edəcək quzunun və kiçik Ermənistan üçün iki aslanın göstərilməsi;
- vətənə xidmət etmiş olan keçmiş öndərlərin ailələrinin şərəfli durumlarının qorunması;
- ticarət qanunlarının, gömrük müqaviləsinin qaydaya salınması və Xəzər dənizində ermənilərə bir liman verilməsi;
- əsgərlikdən qaçanlar və təbəə (vətəndaşlıq) haqqında qanunlar hazırlanması;
- indi bütün xalq tərəfindən seçilən yüksək din rəisinin kralımızın təklifi ilə seçilməsi. Çariçanın təsdiqləməsi ilə Potyomkinin millətimizi ədalətlə idarə edəcəyi üzündən yüksək din rəisliyi, imperatriçanın lütfkarlığı sayəsində, xalqa daha da yaxınlaşdırılmış olacaqdır.

Rusların maraqlarını və vədlərini ifadə edən iyirmi (20) maddəlik ikinci müqavilənin başlıca şərtləri (məqamları) isə aşağıdakılardan ibarətdir:

- Ermənistanı idarə edənlər, ermənistanlıların üsul və adət-ənənələrinə əsaslanaraq, fərmanla onların ailələrinin – ata və babaları müqəddəs erməni kilsəsinə mənsub olanların arasından seçiləcəklər;
- Rusiya imperatorluğu erməni idarəsini Ermənistan krallığı olaraq tanıyacaq və onun səfiri Peterburqda oturacaqdır;
- ermənilər millətlərini öz qanunları əsasında idarə edəcəklər;
- hərbi məsələlərlə bağlı: Rusiya əsgərləri (2000 süvari+ 2000 topçu) özlərinin lazımi qədər sursat və ərzağı ilə Ermənistanı və erməni millətini qorumaq üçün orada qalacaqlar; onların 2 mini onuncu ilin, 2 mini on beşinci ilin və 2 mini isə iyirminci ilin sonunda Ermənistandan çıxmış olacaqlar; altı minlik hərbi hissənin məsrəfləri üçün hər il 60000 tümən (30 mini qızıl və gümüşlə+30 mini də ərzaqla) verəcəklər. Qoşunlar çıxarkən də hər 2 min əsgər üçün 20000 tümən ödəniləcəkdir. Rusiyaya bağlılıq əlaməti olaraq hər il imperatora hədiyyələr göndəriləcəkdir; bütün qalalar və hərbi bölgələr, qoşunlar Ermənistandan çıxanadək, rus komandanlığına tabe olacaqlar; imperatorluq ermənilərdən əsgər yığılmasını istədikdə onlar 6 min nəfər verəcəklər və bunların məsrəfləri Rusiya tərəfindən ödəniləcəkdir;
- ermənilər rus çarını özlərinin xilaskarı və müdafiəçisi kimi tanıdıqlarından onun dostunu dost, düşmənini isə düşmən sayacaqlar;
- Rusiya ilə Ermənistan arasında, vergilər və gömrük rüsumları ödənilmək şərti ilə, ticarət əlaqələri qurulacaqdır;
- ruslar və ermənilər bir-birlərinin dini ibadətlərinə hörmətlə yanaşacaqlar;
- Ağvan və Gürcüstan qədim zamanlardan bəri erməni yeridirlər (?! – İ.M.). Bunlar soykökü baxımdan bir olduqlarından (?! – İ.M.) və indi də bir-birlərini sevdiklərindən lazım gəldiyi vaxt ermənilər ruslara 6 min əsgər verərək Ağvan və Gürcüstanın da qurtulmalarına gücləri çatdığı qədər yardım edəcəklər;
- altı min əsgərin məsrəflərinin ödənilməsi üçün imperator Ermənistanın bütün gəlirinin 4/10-nü alacaqdır və digər 4/10 hissə ruhanilərə, müəssisələrə, yoxsullara xərclənəcək, qalanı isə erməni xəzinəsinə çatacaqdır;
- iki millət (Rusiya və erməni hökumətləri) arasında anlaşılmazlıq yaranarsa üsyana qalxmaq və intiqam almaq qadağandır. Belə bir şəraitdə tərəflər şikayətlərini, cavablarını Almaniya imperatoruna bildirəcəklər və onun verəcəyi hökm hər ikisi üçün ədaləti təmin edəcəkdir.

Həmin müqavilələrdən bəhs edərkən bunlara da mütləq nəzər salmaq vacibdir:

**a)** erməni rəisi, şahzadələri və ailələri tərəfindən təsdiqlənmələri üçün müqavilələr 2 min nüsxə çap edildi;

**b)** ruslar müqavilələrin ancaq dövlətlər arasında bağlana biləcəyini və Ermənistanın isə indilikdə rəsmən bir dövlət olaraq yaranmadığını əsas tutduqlarından onlar imzalanmadı;

**c)** II Yekaterinanın vəfatı və ondan sonra baş verən hadisələr (imperator Pavelin qoşunları Qafqazdan geri çəkməsi və s.) həmin müqavilələrin bu dövrdə həyata keçirilməsinə imkan vermədi;

**ç)** lakin ermənilərin Anadolu və Azərbaycan torpaqlarında özlərinə dövlət qurmaq səyləri sonrakı yüzilliklərdə də davam etdirildi.

Nəticədə H.Arğutyanın layihəsində və göstərilən müqavilələrdə nəzərdə tutulan məqsədlər və planlar qismən də olsa gerçəkləşdirildi. Bu baxımdan «rusların erməniləri qızışdırmaları XVIII yüzillikdən başlayır» deyən türk tarixçisi Y.Okçunun belə bir qənaəti[6] ilə razılaşmaq düzgün olardı: «H.Arğutyan adlı bir erməni keşişi bu sahədə rusların ən böyük yardımçısı olmuşdur. O, davranışı ilə erməniləri fanatik etdiyi kimi, rusların Qafqaz və bugünkü Ermənistanda yerləşmələrinə və həmin bölgələrin indiki duruma düşmələrinə səbəb olmuşdur».

Erməni din xadimləri Rusiyanın XIX əsrin əvvəllərində Qafqazda qazandığı hərbi uğurlardan və onların geosiyasi nəticələrindən də faydalanmağa çalışdılar. Bu işin əsas ideoloq və təşkilatçılarından biri də Üç kilsə (Eçmiədzin) katolikosu Nerses Aştaraketsi oldu. Erməni «tədqiqatları»nda (M.Varandyan, E.Aknuni və b.) Rusiya-İran (Azərbaycan xanlıqları) müharibələri ermənilər üçün qurtuluş savaşı kimi səciyyələndirilir və bunda katolikos N.Aştaraketsinin fəal rolu vurğulanır. I Aleksandrın 1813-cü ilin sentyabrında ermənilərə ünvanlanan bildirişi[7] katolikosu daha da fəallaşdırdı (Həmin sənəddə çarlığın (Gürcüstandakı) sadiq erməni təbəəsinin Rusiyaya sarsılmaz bağlılığını bir çox hallarda isbatladığı yazılırdı. Habelə 1804-1813-cü illərdə İranla müharibədə ruslara göstərdikləri yardımdan dolayı ermənilərə təşəkkür edilirdi).

Eçmiədzin katolikosu N.Aştaraketsi soydaşları İ.Ori və H.Arğutyanın uğursuz missiyalarından (layihələrindən) sonra erməniləri Rusiyanın yardımı ilə «müstəqilliyə» qovuşdurmağa çalışan üçüncü yüksək rütbəli din adamı sayıla bilər. Erməni müəllifləri (E.Aknuni) tərəfindən dövrünün «ən böyük mücahidi və mahir siyasətçisi» kimi qiymətləndirilən Nerses öz dindaşlarının qızışdırılmalarında, hərbi cəhətdən təşkilatlanmalarında və savaşlarda ruslara yardım göstərmələrində çox iş gördü.

Bilavasitə özünün başçılıq etdiyi erməni alaylarına — 60 minlik «Vətən qoruyucuları»na[8] müraciətində (onun mətni E.Uras tərəfindən M.Varandyanın 1914-cü ildə Cenevrədə nəşr olunan «Erməni hərəkatlarının tarixi» kitabından götürülərək incələnmişdir) N.Aştaraketsi bunları demişdi: «Böyük qoruyucumuz rus imperatoruna bağlılıqla bütün qüdrətinizi sərf edin... Ya rus ordusu ilə və yaxud başqa bir şəkildə çalışın».[9] Onun və digər erməni din xadimlərinin bu dövrdəki təbliğatında vurğulanan başlıca cəhət də maraqlı və diqqətçəkicidir. Belə ki, ermənilərin əvvəlki təşəbbüs və layihələrin uğursuzluğundan irəli gələn ümidsizliyini aradan qaldırmaq məqsədi ilə «rusların bu dəfə qəti olaraq onları müstəqilliyə qovuşduracaqları» fikri əsas tutulurdu.

N.Aştaraketsinin Rusiya ilə İran arasındakı ikinci müharibə zamanı (1827-ci ilin qışında) ortaya çıxan təlimatı da kilsənin niyyətlərini yaxşıca açıqlayır. Oradakı bir fikrə nəzər yetirmək olduqca vacibdir: «Ararat ölkəsinin və erməni millətinin qurtuluş saatı gəlmişdir. Eçmiədzin keçmiş müstəqilliyini (?! – İ.M.) qazana bilər. Hamılıqla ayağa qalxın, üsyan edin, qəhrəman ermənilər, fars boyunduruğunu silkələyin, ixtiyar Araratı sevincdən titrədin, vətənimizi qanla sulayın və əbədiyyətə qədər azad, müstəqil yaşayın. Vaxtıdır. İrəli, indi və ya heç bir zaman».[10]

Tarixdən bəlli olduğu kimi, N.Aştaraketsinin Rusiyanın himayəsi ilə «müstəqil erməni dövləti» yaratmaq cəhdləri də əvvəlki təşəbbüslər kimi nəticəsiz oldu. Bunu erməni din xadimlərinin (elə Nersesin özünün) və tarixçilərinin bir-biri ilə üst-üstə düşməyən (hətta əksqütblü) mülahizə və qənaətləri də təsdiqləyir:[11]

- N.Aştaraketsi, əvvəldə toxunduğumuz birinci müraciətində, ermənilərə bu baxışı təlqin etməyə çalışmışdı: «Böyük Rusiya dövləti ... güclü qolunu vətənimizə yalnız öz mənfəətinə görə deyil, eyni zamanda bizim də faydamız üçün uzatmışdır»;
- M.Varandyan Qarabağ, Naxçıvan və İrəvanı İran Ermənistanı hesab etməklə yanaşı məlum 1826-1828-ci illər müharibəsindən sonra «bir rus Ermənistanının qurulduğunu» yazır («Erməni vilayəti» nəzərdə tutulur – İ.M.);
- E.Aknuni isə ermənilərin Rusiya tərəfindən yenə də aldadılmalarına işarə edərək bunları söyləmişdi: «Nerses Ararat erməni vilayətlərinin müstəqilliyi mövzusunda Peterburqdan gələn gizli və ya rəsmi vədlərlə coşmuşdu. Müstəqil erməni əyalətləri, azad bir kilsə, islam boyunduruğundan (?! – İ.M.) qurtulmuş Eçmiədzin...; Ancaq hakimiyyətləri tam şəkildə yerləşincə və monarxist hökumətin (yəni Rusiyanın – İ.M.) müsəlmanları əzmək üçün nə erməni rahibinə, nə də xalqına ehtiyacı qalmayınca rüzgar dəyişdi və bambaşqa sözlər, hətta təhdidlər duyulmağa başladı».

N.Aştaraketsi «Ermənistanın müstəqilliyə qovuşdurulması» sahəsində uğur qazanmasa da ermənilərin Azərbaycanın güneyindən quzeyinə köçürülmələrinə dair ideyanın (layihənin) ərsəyə gəlməsinə nail ola bildi. Katolikosun Y.Lazaryana məktubundan (XI. 1827) aydın olur ki, Nerses «...erməni xalqının sədaqətli müdafiəçisi cənab A.S.Qriboyedovdan əsir düşmüş xristianların (Güney Azərbaycanda məskunlaşan ermənilər nəzərdə tutulur – İ.M.) rus ağalığının qüdrətli bayrağı altına qəbul»unu xahiş etmişdi. Habelə o, Qafqazın Baş hakimi İ.Paskeviçin vasitəsi ilə İranda «...yaşayan ermənilərin böyük Rusiya imperiyası himayəsi altında azad surətdə Ermənistana qayıtmaları haqqında maddənin müqaviləyə (Türkmənçay traktatına – İ.M.) daxil...» olunmasına çalışmışdı. N.Aştaraketsi rahiblərdən Stepan və Nikolayı İ.Paskeviçin (İrəvanskinin) hüzuruna göndərərək ermənilərin köçürülməsi fikrini dəstəklədiklərini ona çatdırmışdı.[12]

Ermənilərin və Rusiyanın din xadimləri – dövlət adamlarının: Aştaraketsi-Lazaryan-Paskeviç-Qriboyedovun birgə səyləri sayəsində məlum mü-

qaviləyə xüsusi maddə (XV) salındı. Və buna əsasən də ermənilərin köçürülmələri həyata keçirildi (Bu barədə əvvəldə də bəhs olunmuşdur). Köçürülmənin baş tutması və çox qısa zamanda həyata keçirilməsinə ciddi təsir göstərən başlıca faktorlar sırasında Eçmiədzin katolikosunun (şəxsən Nersesin) mövqeyi xüsusi ilə seçilir. Belə ki, o, öncə bütün erməni din adamlarına köçməyi əmr etdi və buna qarşı çıxanlarla bağlı müxtəlif tədbirlər gördü. Nəticədə ruhanilərsiz qalan ermənilər istər-istəməz köçməli oldular.

Türkiyə tarixçisi E.Konukçunun[13] Qərb (fransız) müəllifinin əsərindən (Th.Deyrolle, Voyages dans le Lazistan et L'Armenie 1869, Tour du Monde, Paris, 1875) əldə etdiyi olduqca önəmli bir fakt bu baxımdan çox dəyərlidir: sultan II Mahmud dönəmində Osmanlı hökumətinin Ərzuruma göndərdiyi Varfelemeyin öyüd və tövsiyələrini dinləyən ermənilər «əgər göydən həzrəti İsa ensə və bizə getməməyi tövsiyə etsə onu da eşitmərik» cavabını vermişdilər. Onlardan birinin açıqlaması daha diqqətçəkicidir: «Ruslar bizi öz tərəflərinə çəkmək üçün hər şeyi edirlər. Buraya rus məmurları gəlir, bizə ən cazibədar vədlər verərək Qafqaz əyalətlərinə köçməyimizi təklif edirlər. Bizi köçə özəlliklə din adamlarımız təşviq edirlər».

Qafqazın işğalı prosesində və sonrakı ilk vaxtlarda Rusiya dövləti İran və Osmanlı ermənilərinin (ələlxüsus da dini başçıların, o cümlədən Nersesin) ələ alınmaları məqsədi ilə bir sıra siyasi-diplomatik (şirnikləndirici) tədbirlərə də əl atdı. Onlardan ən əsasları aşağıdakılardır:

**a)** Türkmənçay müqaviləsinə məlum XV maddənin daxil edilməsi;

**b)** pravoslav (ortodoks) ruslara verilən hüquqların qriqorian ermənilərə də şamil olunması;

**c)** alban katolikosluğunun ləğvi (1836);

**ç)** xeyli müddət ərzində İstanbul erməni patriarxlığına daxil olan[14] və Güney Qafqazın Rusiyaya qatılması ilə çarlığın hüdudlarına keçən, onun asılılığına düşən Eçmiədzin katolikosluğunun önəminin əvvəllərdə bir qədər artırılması;

**d)** Rusiya erməniləri katolikosluğuna aid qanun – əsasnamənin qəbulu (Onun komandan, erməni mənşəli Bebutov, Tiflis Nersesyan məktəbinin müdiri, professor Azkin və Tiflisdəki erməni arxiyepiskopu Seropdan ibarət bir heyət tərəfindən hazırlanması və Qafqazın Baş hakimi Rozen, katolikos Ovanes, generalı Paskeviçdən təşkil edilən bir komissiyanın təsdiqləməsindən sonra çarın 1836-cı il 11 mart tarixli fərmanı ilə qəbul olunması məlumdur).[15]

Lakin bu dövrdə baş verən olduqca maraqlı və önəmli hadisələrdən biri N.Aştaraketsinin general İ.Paskeviçin ağır ittihamları ilə üzləşməsi və çar I Nikolayın qəzəbinə tuş gəlməsi sayıla bilər. E.Urasın elə erməni mənbələrindən əldə etdiyi məlumatlardan[16] aydın olur ki, İ.Paskeviç katolikosun fəaliyyətindən (əməllərindən) şübhələnərək onu aşağıdakı hallara (işlərə) görə günahkar hesab etmişdi:

- general Benkendorfun ordusunun sərhədə doğru hərəkətindən öncə Nersesin Eçmiədzin kilsəsinin yardım göstərəcəyinə dair vədinə əməl etməməsi;

- katolikosun, Gürcüstanın havasına alışan rus ordusunun İrəvanın iqliminə də öyrəşəcəyinə dair, mülahizəsinin özünü doğrultmaması;
- onun təhriki ilə Krasovskinin apardığı Oşağan döyüşünün məğlubiyyətlə bitməsi və fəlakətə səbəb olması;
- erməni kilsəsinin verdiyi dini nüfuzla kifayətlənməyərək bütün soydaşlarını siyasi təsiri altına alaraq onlara başçı olmaq istəməsi və türklərlə, gürcülərlə əlaqələr qurması;
- dövlətin mənafelərinə zidd olaraq Üç kilsənin (Eçmiədzinin) gəlirlərini və mallarını artırmağa çalışması;
- İrandan yeni alınan yerləri onun hücumundan qorumağa görə istənilən iki min erməni əsgərini verməməsi və Üç kilsəni müdafiə üçün soydaşlarından topladığı silahlı qüvvələrə öz hesabına təlim keçdirməsi.

Bütün bunlardan yaxşıca göründüyü kimi, Nerses ermənilərin Rusiyanın himayəsi ilə «müstəqilliyə qovuşmağa» bəslədikləri ümidlərin bu dəfə də qırılmasını nəzərə almışdı. Soydaşlarının ondan üz döndərməmələri naminə və həm də istəklərində israrlı olduğundan öz səylərini müxtəlif yollarla davam etdirirdi. Təbii ki, katolikosun bu, uzaqgedən niyyətləri və onların gerçəkləşdirilməsinə yönəlik hərəkətləri çarlığın «Böyük və bölünməz Rusiya» siyasəti ilə əsla uzlaşmırdı və imperatoru qətiyyən qane edə bilməzdi.

Buna görə də çarlığın Nersesla bağlı İ.Paskeviçdən istədiyi xüsusi açıqlamaya cavab olaraq Baş hakim bunları bildirmişdi: **1.** Katolikosun ermənilərin yerləşdirildiyi ərazilərin idarəsinə müdaxilə etməsi. **2.** Onun Türkmənçay müqaviləsi üçün İran-Rusiya sərhədlərinin Araz çayı boyu deyil, Maku dağlarından keçməklə Türkiyə hüduduna qədər müəyyənləşdirilməsini istəməsi. Nəticə olaraq Nersesin vəzifədən çıxarılaraq şərəfinə toxunulmadan Qafqazdan uzaqlaşdırılması təklif edildi. Rusiya hökuməti katolikosun müstəqillik planlarından (layihələrindən) və bu məqsədlə də etdiyi davamlı müraciətlərdən yayınmaq üçün, habelə erməniləri qızışdırmasından ehtiyatlanaraq onu 1828-ci ildə Bessarabiyaya sürgün etdi. Nersesin elə orada da 1850-ci ildə vəfat etməsi müxtəlif şayiələrə də (hökumət tərəfindən zəhərlədilməsi) səbəb oldu.

Göründüyü kimi, «Ermənistan»ın Rusiyanın himayəsi ilə müstəqillik qazanmasına bəslənilən ümidləri növbəti dəfə puça çıxdı. Gözönündə inkarı mümkün olmayan bir həqiqət mövcud idi. Belə ki, bir tərəfdən, çarlıq yenicə işğal etdiyi Güney Qafqazda müstəqil erməni dövlətinin yaradılmasında əsla maraqlı deyildi. Dövrün erməni din xadimləri də bu həqiqəti yetərincə dərk edirdilər. Erməni kilsəsinin bu duyumunu Rusiya da yaxşı bilirdi. Digər tərəfdən, çarlığın erməni təbəələri də ruslaşdırma siyasəti ilə üzləşmişdilər. Habelə Eçmiədzin katolikosluğu da məhdud çərçivəyə (yalnız dini işlərlə bağlı) salınmaqla imperatorluq hökumətinin bir əlavəsinə (Rusiya siyasətinin alətinə) çevrilməkdə idi. Həm də Eçmiədzin katolikosluğunun İstanbul erməni patriarxlığını təsir altına salmaq təhlükəsi də yaranırdı (Sonralar bu baş verdi).

Bütün bu və digər hallara görə də qriqorian kilsəsi başlıca diqqəti Osmanlı imperatorluğunun ərazilərində – «Ermənistan» hesab etdiyi Şərqi

Anadolu torpaqlarında dövlət (ilk öncə muxtariyyət şəklində) yaradılmasına yönəltmişdi. Və bu işin əsas ağırlığını Eçmiədzin katolikosluğunun gizli və açıq dəstəyi ilə əsasən İstanbul erməni patriarxlığı öz üzərinə götürmüşdü. 1840-1890-cı illər arasında İstanbul patriarxı və Eçmiədzin katolikosu vəzifələrində bir-birlərini dalbadal əvəzləyən M.Çuhacyan, G.Kerestecyan, M.Hırimyan və N.Varjabedyan (bunlardan təkcə biri – sonuncu çarın təsdiqləməməsi üzündən katolikos ola bilmədi) bu sahədə çoxlu səylər göstərdilər. Onlardan birinci ikisinin (M.Çuhacyan və G.Kerestecyanın) fəaliyyətləri, əsasən, «Erməni Milləti Nizamnaməsi»nin elanı (1863); naminə göstərilən səylərlə səciyyələnir.

Osmanlı ermənilərinin konstitusiyası kimi də dəyərləndirilə biləcək olan bu Nizamnamənin qəbulu qriqorian kilsəsinin tarixində «diplomat katolikos» və «diplomat patriarx» dönəmlərinin başlanğıcı kimi də adlandırılır.[17] Dövlətin həmin Nizamnamə ilə erməni təbəələrə verdiyi hüquqlardan (digərlərinin – elə türklərin də ala bilmədikləri) yaxşı faydalanan din xadimləri əslində birbaşa milli-siyasi məsələlərlə məşğul olmağa başladılar.

Yuxarıda adları çəkilənlərdən M.Hırimyan Osmanlı dövlətinin daxilində (Şərqi Anadoluda) bir muxtar Ermənistan qurulmasını düşüncə-plan (layihə) kimi ortaya qoydu. N.Varjabedyan isə «məşhur» 61-ci maddənin Berlin müqaviləsinə salınmasına nail ola bildi (Bu barədə az sonra bəhs ediləcəkdir). M.Hırimyanın öz ideya-layihəsini gerçəkləşdirmək üçün göstərdiyi səylərə və gördüyü işlərə gəldikdə isə K.Gürün, M.Hocaoğlu və E.İlterin əsərlərinin tərəfimizdən incələnməsi əsasında xülasə kimi bunları qeyd etmək olar:[18]

- İstanbul patriarxı olmazdan əvvəl «tarixi yurdları» (Güney Azərbaycan, Eçmiədzin və Qafqazı) ziyarətindən sonra Osmanlı paytaxtına gələrək ilk əsərini («Ararat üçün») yazmış və burada müəllimlik etmişdi, Habelə Vandakı monastırlardan birində mətbəə açmış, qəzetlər («Van qartalı», «Muş qartalı») buraxmış və bütün bunlarla da «ermənilik şüuru»nun təbliğinə çalışmışdı;
- patriarx seçilən kimi (1869) dini işləri bir kənara qoyaraq, əsasən, siyasi fəaliyyətlə məşğul olmağa başlamışdı. İlk öncə isə, İstanbul ermənilərinin, xüsusilə ilə də başçılıq etdiyi dini qurumun Milli Məclisinin diqqətini «Ermənistan»a yönəltmişdi;
- yenə də bir patriarx olaraq Şərqi Anadoluda yaşayan ermənilərin «problemlərinin öyrənilməsi»ni və onların şikayətlərinin toplanılmasını təşkil etmişdi. Bunlarla bağlı Osmanlı Sədarətinə memorandum göndərmişdi (18.II.1872). Onun birinci hissəsində şikayətlər («problemlər») və ikincisində isə bu halların aradan qaldırılması yolları («yeddi çarə») öz əksini tapmışdı. Patriarx həm də sultan hökumətinin xüsusi komissiya (yarısı müsəlmanlardan və digər hissəsi isə xristianlardan ibarət) yaradaraq şikayətləri yoxlatdırmasına da müvəffəq ola bilmişdi (Bu şəkayətlər əvvəllərdəkitək yenə də, əsasən, vergilərin yığılması zamanı yol verilən

bəzi qüsurlarla bağlı idi. Sadəcə patriarx onlara siyasi rəng – «milli zülm» xarakteri vermək istəyirdi);

- patriarxlığın hüquqlarının daha da genişləndirilməsinə nail olmaq məqsədi ilə hətta «Erməni Milləti Nizamnaməsi»nin dəyişdirilməsinə yönəlik cəhdlər etmişdi (Yeri gəlmişkən, bu kimi cəhdləri və digər hərəkətləri üzündən Osmanlıya bağlı ermənilərin (ruhani, bankir, ziyalı və s.) ciddi etirazları ilə qarşılaşan patriarx istefaya getməyə məcbur oldu);
- digər yüksək məqamlı ruhanilərlə birlikdə Avropa dövlətlərinə çoxlu müraciətlər göndərərək Berlin konqresində «erməni məsələsi»nə baxılmasına səylər göstərmişdi;
- ermənilərin baş təmsilçilərindən biri kimi Berlin konqresinə qatılaraq orada «erməni davası»nı aparmışdı.

Ermənilər tərəfindən «baba» ləqəbi verilən və patriarxlıqdan əvvəl Vandakı Varak, məşhur Axtamar, habelə Muş monastırlarında keşiş olan M.Hırimyan «tarixi missiya»sını özü belə açıqlamışdı: «Mən Ermənistanın ağrı çəkən bir təmçilçisiyəm. Məndən öncəkilərin dərman tapmaq üçün hökumətə nə şəkildə baş vurduqlarını bilirəm. Fəqət mən daha təsirli bir müdaxilədə bulunacağam».[19] Onun fəaliyyətinə Topcıyanın «Gənc türklər və ermənilər» (Tiflis, 1909) kitabında yazdığı bir fikirlə də xülasə verilə bilər: «Hırimyanın Muşdan İstanbul patriarxlığına gətirilməsi ilə erməni məsələsi də onunla birlikdə İstanbula (oradan da Avropaya keçməsi üçün) gəlmiş oldu».[20] Bu və digər niyyətlər baş tutdu. Belə ki, maraqlı dövlətlərin yetərli yardımı, habelə Hırimyan və digərlərinin fəal dəstəyi ilə N.Varjabedyan «erməni davası»nı Berlin konqresinə və sonrakı beynəlxalq müzakirələrə çıxara bildi.

## ƏDƏBİYYAT


1. Baxın: E.Uras. Tarihte Ermeniler ve Ermeni Meselesi, istanbul, 1987, s.749-755.
2. H.Arğutyanın layihəsi və sonrakı proseslərlə bağlı yenə də E.Urasın tədqiqatından (s.749-755) ətraflı məlumat almaq olar. Bununla bağlı habelə baxın: Salahi R. Sonyel, Minorities And The Destruction of The Ottoman Empire, Ankara, 1993, c.132 və A.H.Saral, Ermeni Meselesi, s 14.
3. A.Süslü, Ermeniler ve 1915 Tehcir Olayı, Ankara, 1990, s.25.
4. Baxın: E.Uras. Göstərilən əsəri, s.749, 755; A.Süslü. Göstərilən əsəri, s.25 və «Kafkas Araştırmaları», II, İstanbul, 1996, s.22-23.
5. Bu fikir və mülahizələr E.Urasın göstərilən əsərindən (s.750-755) gətirilir.
6. Y.Okçu, Türk-Rus Mücadele Tarihi, Ankara, 1953, s.44.
7. Rusiya çarı I Aleksandrın 1813-cü ilin sentyabrında ermənilərə ünvanlanan təlimatının (təşəkkürnaməsinin) mətni E.Urasın göstərilən əsərində (s.755-756) verilir.
8. M.Hocaoğlu, Tarihte Ermeni Mezalimi ve Ermeniler, İstanbul, 1976, s.26.
9. E.Uras. Göstərilən əsəri, s.756-757.

10. N.Aştaraketsinin bu təlimatı ilə bağlı baxın: K.Gürün, Ermeni Dosyası, istanbul, 1988, s.95 və E.Uras. Göstərilən əsəri, s.757 (Mənbə: E.Aknouni, Les Plaies du Caucase, Cenevre, 1905, s.117-119).
11. Bu iqtibaslar E.Urasdan (s.756) və K.Güründən (s. 94-96) gətirilir (Mənbələr: M.Varandian, L'Armenie et la Question Armenienne, Laval, 1917, s.42-46 və E.Aknouni, Les Plaies du Caucase, Cenevre, 1905, s.117-119).
12. K.Beydilli, 1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler, Ankara, 1988, s.374.
13. E.Konukçu, Ermenilerin Yeşilyayladakı Türk Soykırımı (11-12/ III-1918), Ankara, 1990, s.30.
14. Kafkas Araştırmaları, II, İstanbul, 1996, s.41 (Mənbə: Üçkilise (Eçmiyazin) muharrasalığının 15 Şevval 1239/13 Hazıran 1824 tarihli kayıt sureti. – T.C. Başbakanlık Osmanlı Arşivi, Hatt-i Hümayun tasnifi, 36655.
15. Baxın: E.Uras. Göstərilən əsəri, s.172-173.
16. Bu və sonrakı məlumatlar E.Urasın adıçəkilən əsərindən (s.757-758) götürülmüşdür.
17. E.İlter, Ermeni Kilisesi ve Terör. Ankara, 1996, s.39.
18. Bu məlumat-faktlar E.Urasın (s.176-179), K.Gürünün (s.110-111), M.Hocaoğlunun (s.26-27) və E.İlterin (s.39-41) adları çəkilən əsərlərindən əldə olunmuşdur.
19. E.İlter. Göstərilən əsəri, s.41. (Mənbə: M.Varandian, Origins of the Armenian Movement, Vol.II, Genevre, 1913, s.49).
20. Sitat E.Urasın kitabından (s.176) gətirilir.

## РОЛЬ ЦЕРКВИ В СОЗДАНИИ "АРМЯНСКОГО ВОПРОСА"
**(статья вторая)**

**И.М.МУСАЕВ**

### АННОТАЦИЯ

В статье изложены главные цели, преследуемые церковью по созданию так называемого "армянского вопроса". Основное внимание уделено изучению целенаправленной деятельности григорианской секты для вынесения "армянского вопроса" на международную арену. Здесь раскрыта роль григорианской церкви в деле организации обсуждения данной "проблемы" на таких крупных международных конференциях, как Берлинская и т.д.

Далее в статье дан анализ взаимосвязанных действий церкви и многих великих держав по созданию и "решению армянского вопроса". Статья написана на основе анализа архивных документов, в особенности официальных переписок ветвей григорианской церкви между собой, с государственными учреждениями ряда стран. В работе, также, учтены некоторые обобщения исторических научных исследований по данной проблеме.